# Milli Məclisin komitə iclasında Hesablama Palatasının hesabatı təqdim edilib



Aprelin 8-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, iclasda Azərbaycan Respublikası Hesablama Palatasının 2023-cü ildə fəaliyyəti haqqında hesabat müzakirə edilib.

Komitə sədri Tahir Mirkişili Hesablama Palatasının öz fəaliyyətini 4 istiqamət - nəzarət tədbirlərinin həyata keçirilməsi, büdcə layihəsinə və icrasına rəy verilməsi, dövlət maliyyəsi üzrə tövsiyələr və beynəlxalq əməkdaşlıq üzrə qurduğunu deyib.

Nəzərə çatdırılıb ki, Hesablama Palatası 2023-cü il üzrə əməliyyat planını 91,7 faiz icra edib. Keçən dövr ərzində Palata tərəfindən 45 nəzarət tədbiri həyata keçirilib, onlardan 2-si Milli Məclis deputatlarının çıxışları əsasında, digər tədbirlər isə özünün müəyyən etdiyi sahələr üzrə olub. Ümumilikdə, aparılan nəzarət tədbirlərinin əhatə dairəsi 18,2 milyard manat təşkil edib.

Tahir Mirkişili 2023-cü ilin əlamətdar hadisələrlə zəngin olduğunu vurğulayıb. O, Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünün qeyd edilməsinin, ölkə Prezidenti tərəfindən Azərbaycan bayrağının Xankəndidə ucaldılmasının dövlətimiz üçün önəmli hadisələr olduğunu bildirib. Qeyd edib ki, əldə edilən qələbənin dayanıqlığını təmin etmək üçün ölkəmizin maliyyə və iqtisadi cəhətdən daha da güclənməsinə nail olmalıyıq.

Hesablama Palatasının sədri Vüqar Gülməmmədov Palatanın 2023-cü ildə fəaliyyəti haqqında hesabatını slaydlar və diaqramlar vasitəsilə təqdim edib. O bildirib ki, 2023-cü il üzrə hesabat "Hesablama Palatası haqqında" Qanuna, "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi"nə əsasən, beynəlxalq standartların tələbinə uyğun olaraq hazırlanıb.

Vüqar Gülməmmədov əvvəlcə Palatanın fəaliyyətində olan yeniliklər barədə məlumat verib. Diqqətə çatdırılıb ki, ilk dəfə olaraq iki maliyyə tutumlu qurumda illik konsolidə olunmuş maliyyə hesabatlarının auditi, bir səmərəlilik auditində hökumət əsaslı Dayanıqlı İnkişaf Məqsədlərinin qiymətləndirilməsi aparılıb, bir maliyyə auditinin keyfiyyətə əminlik proseduru keçirilib. Palatanın təkliflərinin izlənməsinin (follow-up) rəqəmsallaşdırılması modulu tam tətbiq olunub, həmkar ali audit orqanının - Tacikistan Respublikası Hesablama Palatasının fəaliyyətinin qiymətləndirilməsi həyata keçirilib, təhsil müəssisələrində "Dövlət sektorunda audit" təlim proqramı tədris olunub, ictimai iştirakçılıq məqsədilə Palatanın rəsmi internet səhifəsində "Audit təklif et" bölməsi yaradılıb. Bununla yanaşı, Hesablama Palatasının strukturunda daxili auditor ştat vahidi yaradılıb, hesabat ilində daxili audit üzrə 3 struktur vahidinin fəaliyyəti yoxlanılıb, 3 araşdırma aparılıb, fəaliyyətin təkmilləşdirilməsi istiqamətində təkliflər verilib, aidiyyəti üzrə metodiki sənədlər hazırlanıb.

Palata sədri hesabatdakı yeniliklərlə bağlı bildirib ki, sənəddə 2023-cü ilin "Heydər Əliyev İli" elan olunması ilə əlaqədar qurum tərəfindən görülmüş işlər işıqlandırılıb, beynəlxalq standartlara istinadların sayının artırılması sahəsində nəzarət tədbirləri ilə yanaşı, digər fəaliyyətlər üzrə də beynəlxalq audit standartlarından çıxarışlar verilib, bərpa olunan məbləğin mənbələr üzrə bölgüsü göstərilib, habelə 2 və daha çox sayda keçirilmiş auditlər üzrə auditin təsiri qeyri-məqbul olmuş qurumların siyahısı əks olunub. Həmçinin əvvəlki illərdə hesablanmış, lakin ödənilməmiş məbləğlərin icra vəziyyəti barədə məlumat verilib.

Vüqar Gülməmmədov, Hesablama Palatasının 2021-2025-ci illər üzrə strateji planının icrası ilə bağlı məlumat verib. Bildirilib ki, strateji planın hesabat ilində icrası məqsədilə bütün aralıq nəticələri əhatə edən 2023-cü ilin əməliyyat planı tərtib olunub. Burada fəaliyyət istiqamətləri ilə bağlı zəif bəndlər, potensial boşluqların aradan qaldırılması, fəaliyyətin müxtəlif istiqamətlər üzrə təkmilləşdirilməsi məqsədilə həyata keçirilən tədbirlər yer alıb. Strateji planda nəzərdə tutulmuş fəaliyyətin icrası 90 göstərici əsasında qiymətləndirilib. 2023-cü ildə ümumilikdə 327 tədbir nəzərdə tutulub və ilin sonunda 91,7 faiz icra olunub. Nəzərdə tutulmuş tədbirlərin icrası məqsədilə 9,6 milyon manat vəsait proqnozlaşdırılıb, onun 83,3 faizi istifadə olunub.

Bildirilib ki, hesabat ilində Hesablama Palatası üzvlərinin təklifləri əsasında 46 nəzarət tədbirinin keçirilməsi planlaşdırılıb, müvafiq icra hakimiyyəti orqanının təklifləri əsasında 4 yeni tədbir əlavə olunub, Milli Məclisin deputatlarının fikirləri əsasında 2 yeni tədbir əlavə edilib. Hesablama Palatasının kollegiyası tərəfindən audit və analitik fəaliyyətlə bağlı 45 nəzarət tədbirinin keçirilməsi ilə bağlı qərar qəbul edilib, 1 analitik fəaliyyətin nəticələri rəsmiləşdirilməyib.

Diqqətə çatdırılıb ki, hesabat ilində audit fəaliyyəti sahəsində auditin hər üç növü - səmərəlilik, maliyyə, uyğunluq auditi tətbiq olunmaqla ümumilikdə 41 audit başa çatdırılıb, bir neçə auditdə informasiya sistemi auditinin bəzi elementlərindən istifadə edilib. Hesabatda risklər barədə də məlumat verilir.

Hesablama Palatasının hesabatı ətrafında aparılan müzakirələrdə komitənin sədr müavini Əli Məsimli, üzvləri Vahid Əhmədov, Vüqar Bayramov, Məzahir Əfəndiyev, Aydın Hüseynov, Rüfət Quliyev, Elnur Allahverdiyev çıxış ediblər. Deputatlar hesabatın dolğun, əhatəli tərtib edildiyini, Hesablama Palatasının 2023-cü ildə fəaliyyətinin geniş şəkildə əks olunduğunu müsbət qiymətləndiriblər, aparılan yoxlamaların vacibliyini qeyd ediblər, bir sıra məsələlərlə bağlı fikirlərini açıqlayıblar, bəzi qeyd, təklif və suallarını səsləndiriblər. Hesablama Palatasının sədri Vüqar Gülməmmədov deputatların qaldırdığı məsələlərə aydınlıq gətirib, suallarını cavablandırıb.

Müzakirələrin sonunda Azərbaycan Respublikası Hesablama Palatasının 2023-cü ildə fəaliyyəti haqqında hesabatı müzakirə üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***"Azərbaycan"***

Azərbaycan.- 2024.-9 aprel, № 73.- S.4.